# Qloballaşma və ailə

**Qabil Etibar oğlu Verdizadə**
*Azərbaycan Universiteti*
**E-mail:** verdizadeq@gmail.com

**Rəyçilər:** i.ü.f.d, dos. A.A. Musayeva,
h.ü.e.d, prof. M.N. Əliyev

**Açar sözlər:** qloballaşma, ailə, dəyərlər, cəmiyyət, təsir
**Ключевые слова:** глобализация, семья, ценности, общество, влияние
**Key words:** globalization, family, volues, society, impact

Günümüzdə qloballaşma mövzusu aktuallığı ilə seçilir. XXI əsrdə qloballaşma anlayışı bir çox proseslərin formalaşmasını, əlaqələrin yeni, daha yüksək və daha geniş, qlobal səviyyədə inkişafını müəyyənləşdirən vacib amil olmuşdur. Bu gün iqtisadiyyatda, siyasətdə, sosial sahədə bu və ya digər prosesi təsvir edərkən beynəlxalq, qlobal, dünya anlayışları daha çox istifadə olunur. Qloballaşma iqtisadi, mədəni, siyasi və dini sahələrdə inteqrasiyanı nəzərdə tutur. Sadə sözlə desək, qloballaşma dünyanın vahid bir sistemə çevrildiyi bir prosesdir. Keçən əsrin sonlarında qloballaşma aktual müzakirə mövzusuna çevrilmiş, bu mövzuda müzakirələr hələ də davam etməkdədir. Çünki, qloballaşmanın nəticələri o qədər də aydın deyildir. Bir sıra tədqiqatçıların fikrincə, qloballaşma, ilk növbədə, dünya informasiya mübadiləsi prosesi kimi ənənəvi (milli, regional və s.) dəyərlərə qarşı ümumbəşəri dəyərlər sisteminin formalaşdırılmasını şərtləndirir.

Qeyd etmək lazımdır ki, qloballaşmanın həm müsbət, həm də mənfi nəticələri var. Müsbət cəhətlərinə aşağıdakılar aid edilir: (1, s. 182)

— texniki nailiyyətlərin və müasir idarəetmə üsullarının tətbiqi və yayılmasının sürətləndirilməsi; Qloballaşma prosesində iştirak edən ölkələr digər ölkələrin texniki nailiyyətlərindən istifadə etmək hüququna malikdirlər. Belə ki, vətəndaş və hüquqi dövləti səciyyələndirən demokratik seçkilər də getdikcə daha çox populyarlıq qazanır ki, seçki təcrübəsindən bir çox dövlətlərdə demokratiyanın təmin edilməsi baxımından istifadə etmək olar.

— Dövlətlər və vətəndaşlar üçün yeni iqtisadi perspektivlər meydana gəlir. İnkişaf etməkdə olan ölkələr inkişaf etmiş dövlətləri qabaqlaya bilər, qloballaşma onlara iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq və dünya səhnəsində möhkəm yer tutmaq üçün başlanğıc verir.

— Qloballaşma nəticəsində əhalinin daha yüksək səviyyədə yaşayışını təmin etmək imkanları yarana bilər. Qloballaşma istehsal miqyasına qənaət etməyə gətirib çıxara bilər ki, bu da iqtisadiyyatda sıçrayışların qarşısını almağa və dünya bazarında qiymətlərin azalmasına kömək etmiş olar.

Lakin qloballaşmanın mənfi nəticələrini də unutmaq olmaz.(2) Bunlara aşağıdakılar daxildir:

İstehsal sahəsində artan bərabərsizlik. Qeyd etmək yerinə düşər ki, qloballaşmanın faydaları bütün dünyada bərabər paylana bilməz. Bunun nəticəsində bəzi sənaye sektorları beynəlxalq ticarətdən böyük fayda əldə edir, xaricdən ixtisaslı işçi axını, maliyyələşdirmə aparır, digərləri isə əksinə, rəqabət qabiliyyətlərini itirir və lazımsız hala gəlir. Unudulmuş sənaye sahələrinin yenidən qurulması, yeni həyat şərtlərinə uyğunlaşması üçün vaxt və maliyyə tələb olunur. Çoxları uğur qazana bilmir, nəticədə sahibləri pul, insanlar işlərini itirmiş olurlar. Belə

dəyişikliklər hər bir ölkənin milli iqtisadiyyatına güclü zərbə vurur, təsərrüfat strukturlarına dəyişiklik edir, işsizliyin səviyyəsinin artmasına gətirib çıxarmış olur.

Dünya ekologiyası üçün ağır nəticələr. Qloballaşma dünyanın ekosisteminə əhəmiyyətli dərəcədə təsir göstərir. Bildiyimiz kimi, təbii resurslardan istifadə ilə bağlı münaqişələrdən qaçmaq mümkün deyil. Dünya artıq böyük bir mübahisənin astanasındadır, bunun səbəbi meşələrin qırılması, okeanların və dənizlərin çirklənməsi və Yer kürəsinin nemətlərindən səmərəsiz istifadə edilməsidir. Bütün bunlar bəşəriyyətə və bütövlükdə planetə düzəlməz zərər vura bilər.

Milli mədəniyyətlərin bütövlüyünə artan təhdidlər və dövlətlərin suverenliyinə qarşı çıxan problemlər. Qloballaşma bu gün təkcə kulturoloqları deyil, həm də siyasətçiləri, ictimai və din xadimlərini narahat edən ən vacib problemlərdən birinə çevrilən milli-mədəni kimlik problemini kəskinləşdirmiş olur. Qloballaşma prosesi, hər bir mədəniyyəti zənginləşdirmək üçün bir vasitə olmaq əvəzinə, demək olar ki, bütün mədəniyyətlərin mənimsənilməsi formasına çevrilmişdir.

Ümumiyyətlə, yuxarıda qeyd olunan qloballaşmanın müsbət və mənfi cəhətlərinin iqtisadiyyat, siyasət və mədəniyyət problemlərinə təsir etdiyi aydındır. Ancaq çox təəccüblüdür ki, qloballaşmanın müsbət və mənfi cəhətlərini izah edərkən çox vaxt bunun ailəyə təsiri barədə bir söz demirlər. Qloballaşmanın ailəyə bu və ya digər dərəcədə təsiri cəmiyyətin digər sferalarına təsiri qədər geniş araşdırılmamışdır. Halbuki, bu, müasir cəmiyyətin ən vacib məsələlərindən biridir. Zaman, davranış dəyişir, elmi və texnoloji tərəqqi irəliləyir. Lakin bütün dövrlərdə ailə dəyişməz dəyər olaraq qalır. Axı ailə həyatda insanın ən müqəddəs sərvətidir. Ailə naminə biz hər cür işlərə hazırıq və məhz ailədə sevinc, əmin-amanlıq və harmoniya tapırıq, məhz ailə bizə yaşamaq və yaratmaq, həyatın hər bir təzahürünə sevinmək üçün güc verir.

Bu gün bir çox alimlər və ictimai xadimlər qloballaşmanın daha çox iqtisadi aspektini müzakirə mövzusuna çevirirlər. Rusiya və digər MDB ölkələrinin də tədricən cəlb olunduğu iqtisadi və mədəni qloballaşmanın sosial nəticələri istər-istəməz qadın və kişilərin həyatının, ailə münasibətlərinin şəxsi sferasında da öz əksini tapır. Bəlkə də postsovet ölkələri hələ də qloballaşmanın "əlamətlərini" hiss etmir, çünki bu proseslər inkişaf etməkdə olan və post-sənaye ölkələrində daha çox baş verir. Qərb alimlərinin əsərlərində daha çox əks olunur. Nə qloballaşma tərəfdarları, nə də əleyhdarları baş verən prosesi dəyişə bilmirlər. Ona görə də bu gün kişi və qadınlar, ailə üçün qloballaşmanın mümkün "risklərini" müzakirə etmək aktual olan məsələlərdəndir. (3)

Qeyd edək ki, insanlar özləri üçün həyat qaydalarını, mənəvi kodları, yerinə yetirilməsini özlərinə şərəf işi hesab edən mənəvi əmrləri çoxdan icad etmişlər. Biz məhz ailədə həyat, mənəviyyat, əxlaq haqqında təsəvvür əldə edirik. Nəyin yaxşı və ya pis olduğunu, hansı hərəkəti etməyin yolverilməz, hansının daha faydalı olmasını və sair bu kimi məsələləri ailədə öyrənirik. Biz ailədə iqtisadi bacarıqları əldə edirik, ilk müstəqil hərəkətləri yerinə yetiririk və onların qiymətləndirilməsini həyata keçiririk, başqalarının hərəkətlərini və özümüzü qiymətləndirməyi öyrənirik.

Bəs indi müasir ailələrdə nə baş verir? Niyə ənənəvi ailələr məhv olur? Bu suallar sosioloqları və ailə institutunu araşdıran tədqiqatçıların ortaya qoyduğu vacib suallardır. Ailə dəyərlərinin itirilməyə doğru getdiyi fikirlər səslənməkdədir. Bunun qarşısını almaq üçün sözsüz ki, ilk növbədə səbəblərini, eləcə də buna təsir edən amilləri ortaya çıxarmaq lazımdır.

Sosiallaşma prosesinin ailə institutuna təsiri müzakirə olunarkən tədqiqatçıların fikirləri bir-birinə bölünmüş oldu: bəziləri hesab edirlər ki, bu proses ailəyə müsbət təsir göstərir, digərləri isə əksinə, mənfi təsir göstərdiyini iddia edirlər. Belə ki, bir çoxları hesab edir ki,

qloballaşmanın məhz mənfi təsiri müasir ailələrdə baş verən dəyişikliklərin səbəbidir.

Ailə hər bir insan üçün vacibdir. Ailə cəmiyyətin əsasını təşkil edir. Bu, bütün tarixi dövrlərdə belə olmuşdur və bu gün də öz əhəmiyyətini saxlayır. Əgər mənəvi dəyərlər sıradan çıxsa, ailə dəyərləri əhəmiyyətli olmağı dayandırsa, onda bütün cəmiyyət xəstələnmiş olacaq.

Həyat dəyişir və əvvəllər sarsılmaz görünən dəyərlər təəssüf ki, dəyişikliklərə məruz qalır. Cəmiyyətimizdə prioritetləri dəyişsək nə baş verə biləcəyinə diqqət yetirək. Tutaq ki, hər bir insan üçün birinci yerdə ailə və uşaqlar deyil, karyera olacaqdır. Doğrudan da, indi tam olaraq bunu düşünənlər kifayət qədərdir. Belələrinin fikrincə, nə üçün bir insanın bir ailəsi, övladı olmalıdır - bütün bunlar məqsədə çatmaq üçün böyük maneələrdir. Bunun nəticəsində də bu gün dünyada doğumun azalması müşahidə olunur, rasionalizm səmimiyyəti və mərhəməti əvəz edir, sevgi bir növ əməkdaşlıq əlaqələrinə çevrilir.

Qloballaşmanın ailə institutuna mənfi təsirlərini nəzərdən keçirək. Ailənin və qender münasibətlərinin problemləri üzrə mütəxəssislər qloballaşmanın bir sıra mənfi cəhətlərini qeyd edirlər: Qlobal iqtisadiyyat şəraitində insanlar yüksək qazanc axtarışı və daha yaxşı həyat ümidi ilə daha firavan dövlətlərə üz tuturlar. Həmişə onların gözləntiləri doğru deyil. Rusların İngiltərəyə və ya azərbaycanlıların Rusiyaya haraya getməsi vacib deyil. Həmişə milliyyət və ya miqrant statusu ilə ayrı-seçkilik edilir, onlar iqtisadi tələyə düşürlər və qadınlar cinsi istismar da daxil olmaqla əlavə istismara məruz qalmış olurlar. Nə qədər insan itkin düşüb, başqa ölkələrdə həlak olub, məlum deyil. Belə ki, "milli statistika" aparılmır, sosioloji tədqiqatlar çətinləşir. Multikulturalizm və tolerantlıq siyasəti heç də həmişə arzu olunan nəticələrə gətirib çıxarmır. (1) Hətta demokratik dəyərlərə malik hesab edilən Avropa ölkələrində də qəbul edən ölkələrin vətəndaşları tərəfindən düşmənçilik halları müşahidə edilir, halbuki bu ölkələr miqrantları çoxdan qəbul edirlər.

İmperializm dövründə miqrasiya prosesi qohumluq, ailə əlaqələrini məhv edir. Hətta əgər insanlar ailələrlə mühacirət etsələr də, onlar qohum şəbəkənin və yaxın dostların dəstəyinə malik olmur. Belələri stress və məhrumiyyətlərin yaşandığı hallarda, əksər hallarda evliliyinə və övladlarına təsir edən vəziyyətin öhdəsindən gələ bilmirlər. Valideynlər uşaqların gələcəyini iqtisadi cəhətdən daha firavan ölkədə təmin etmək üçün məhrumiyyətlərə dözürlər. Uşaqlar özləri yeni şəraitə daha tez uyğunlaşırlar, dili və yerli mədəniyyəti mənimsəyirlər. Amma "köklərdən ayrılma" baş verir. Bu, şəxsiyyətin formalaşmasında, xüsusilə yeniyetmə yaşlarında problemlər yaratmasa da, sonrakı nəsillər üçün heç də müsbət nəticələr vermir. (4)

Xarici mühitdə yaşayan və maddi problemləri olan miqrantların ailələri, ümumiyyətlə, daha yaxşı maddi həyat səviyyəsi ilə "kompensasiya edilə" bilməyən davamlı stres vəziyyətində yaşayırlar. Ər-arvadın müvəqqəti olaraq evdən uzaq iş halında bölünməsi onların nikahının sabitliyinə və effektiv valideynliyinə mənfi təsir göstərmiş olur. Bundan başqa, ərin yeni yerdə işlə təmin olunması müəyyən problemlər yaradır. Miqrasiya qaydaları isə çox vaxt bütün ailənin başqa ölkəyə gəlməsini, xüsusilə də müvəqqəti iş müqavilələri zamanı nəzərdə tutmur. Bu da ailənin dayanıqlılığının deformasiya olunmasına, ailə dəyərlərinin, ailə üzvləri arasındakı münasibətlərin zəifləməsinə gətirib çıxarır.

Qloballaşma mexanizmlərindən biri ölkələrarası (millətlərarası) nikahdır. Tez-tez jurnalistlər, o cümlədən, sosioloqlar bu nikahların taleyi ilə maraqlanırlar. Lakin bu mövzu praktiki olaraq öyrənilməmişdir, yenə də qlobal miqyasda statistika aparmaq və ya sosioloji tədqiqat aparmaq praktiki olaraq mümkün deyildir. Bəlkə də bir çox evliliklər olduqca uğurlu olur. Lakin internetdə tanışlıq hallarında "risklər" artmaqdadır. Məsələn, başqa ölkədə yeni bir həyat yoldaşına sahib olanlar cinsi və iqtisadi istismara məruz qalmaqdan sığortalanmırlar. Bir çox belə faktlar müşahidə edilmişdir. İstənilən halda, belə ailələrin əlavə problemləri var. Müxtəlif

mədəniyyətlərə malik olan insanların ailə davranış normalarının uzlaşdırılması, uşaqların tərbiyəsi ilə bağlı əlavə münaqişələr və s. meydana çıxır.

Qloballaşma şəraitində gənclər tərəfindən ailənin formalaşması problemi də günümüzdə əhəmiyyəti ilə seçilir. Bu məsələ Avropa ölkələrində qeyd olunan məsələ ilə bağlı bir sıra layihələrin müəllifi olmuş alman ailə sosioloqları P. Blossfeld və H. Hofmeister tərəfindən də vurğulanır. Onlar qeyd edirlər ki, gənclər "qeyri-müəyyənlik" və gələcəkdə etibarsızlıq hissini yaşayırlar və buna görə də ailə qurmağa tələsmirlər. Nikaha daxil olma və ailələrdə uşaqların sayının azalması hallarında görünməmiş artım, gənclərin uzunmüddətli öhdəlikləri (Nikah və uşaqlar kimi) öz üzərlərinə götürə bilməməsi ilə bağlı nəticə çıxarır. Bu kimi hallar, öz növbəsində, qloballaşma şəraitində, xüsusən də ərin qazanc rolunun vurğulandığı ölkələrdə iqtisadi imkanlarındakı inamsızlıqdan qaynaqlanır.

Qlobal iqtisadiyyatda ər-arvadın hər ikisi də işləməyə məcburdurlar, çünki hər zaman bir "qazanan" üçün iş itkisi riski var. Giffin fikrincə, ailədə problemlər "neoliberal özəlləşdirmə və əmək bazarının tənzimlənməməsi"nin (bu halda Braziliya haqqında söhbət gedir) nəticəsi olaraq qadınların əhəmiyyətli bir hissəsi üçün peşəkar karyera və ailənin tam uyğunsuzluğu problemidir. İnkişaf etmiş ölkələrdə artıq "qlobal nikah bazarında" özünəməxsus gender strategiyaları formalaşmışdır. Beləliklə, bəzi kişilər evlilikdə gender bərabərliyinə istiqamətlənmənin Qərbdə olduğu qədər yayılmadığı və qadınların "ərə qulluq etməyə" hazır olduqları ölkələrdə arvad tapmağa çalışırlar. Məsələn, Amerikalı kişilər Rusiyada kişilərlə tərəf müqabili edərək evdə "ərköyünləşməyən" rus qadınlarını fəal şəkildə axtarırlar. Alman kişiləri, xüsusilə 30 ildən sonra, iqtisadi cəhətdən daha az inkişaf etmiş ölkələrdən olan həyat yoldaşına üstünlük verirlər. Beləliklə, nikahda patriarxal münasibətlər qlobal olaraq müəyyən edilir. (4)

Qeyd edək ki, orta təbəqəyə aid olan Qərb qadınları həm evdə xidmətçi, həm də uşaq və qocalar üçün qayğı göstərən miqrantların ucuz əməyindən istifadə edirlər. Beləliklə, onlar peşəkar və ailə maraqlarını bir araya gətirə bilirlər. Alise Hocxşild inanır ki, "qlobal qayğı zəncirləri" həm Qərbdə, həm də anaların uşaqla az təmasda olduqları yerlərdə, dayə və baxıcıların mövcud olduğu şəraitdə anaların və uşaqların emosional bağlarını pozmuş olur. Sonuncu halda, analar özgə uşaqları üçün qayğı göstərirlər və praktiki olaraq özlərini unutmuş olurlar.

Əsas təhlükə – Polşa sosioloqu P. Ştompkanın təsvir etdiyi mədəniyyətin qloballaşmasıdır. O, bu barədə yazır: "Yerli normalar və dəyərlər, adət və əxlaq, dini inanclar, ailə həyatı modelləri, istehsal və istehlak üsulları, müasir Qərb institutlarının basqısı altında yoxa çıxır... Mədəniyyətin birləşməsinin hazırkı qlobal miqyasları əsasən kütləvi kommunikasiya vasitələri, xüsusilə də televiziya ilə müəyyən edilir. "İmperialist kütləvi informasiya vasitələri" planetimizi eyni mədəni məhsulu istehlak edən "böyük kənd"ə çevirir". (2,56)

"Milli mədəniyyətin translyasiyasının əsas mexanizmi kimi qohumluq əlaqələrinin qırılması tendensiyası insanları cəmiyyətlərin sekulyarlaşdırılması şəraitində "mədəniyyətsiz" və ya ən yaxşı halda, "kütləvi mədəniyyət" sülhü yaratmaqla hədələyir. Xüsusilə, Amerikanın nümunəsində yarım əsr əvvəl təsvir edilmişdir" – L. Gurko bildirir. (5)

Son zamanlar rus mətbuatında ailə dəyərləri ilə bağlı yazılmış bir məqalədə ailədə baş verən mühüm dəyişiklikləri əyani şəkildə göstərmək üçün L. N. Tolstoyun "müharibə və sülh" romanına müraciət edilərək, XIX əsrin ailəsini müasir ailə ilə müqayisə etmişlər. "Qloballaşmanın təsiri altında ailə və ailə dəyərləri" adlı məqalədə sözügedən əsərinin nümunəsində ailə ənənələri göstərilmişdir. Məqalədə qeyd edilir ki, Tolstoyun fikrincə, Rostovlar ailəsi ürəyin ağıl üzərində üstünlük təşkil etdiyi mükəmməl harmonik bir tamdır. Sevgi bütün ailə üzvlərini birləşdirir. Valideynlər uşaqlarını böyüdür, onlara bütün sevgilərini bəxş etdilər. Onları başa düşür, bağışlayır və köməklik göstərirlər. Ailə başçısı İlya Andreyeviç Rostov yumşaq, meh-

riban və layiqli bir insandır. Qraf ailəsini çox sevir, uşaqları ilə yaxın, etibarlı əlaqələri var: İlya Andreyeviç Petinin orduya getmək arzusuna mane olmur, şahzadə Bolkonski ilə ayrıldıqdan sonra Nataşanın taleyi və sağlamlığı barədə səmimi narahatlıq keçirir. Qraf Doloxov ilə xoşagəlməz bir hekayəyə girən Nikolayın böyük oğlunu xilas edir. Rostovun qrafinyası obrazı romanda da diqqət çəkir. Gəncliyində Natalia salonlarda xoş bir qonaq idi. Lakin İlya Andreyeviç Rostovla evlənərək ictimai həyatdan imtina etdi və özünü tamamilə ailəyə həsr etdi. Uşaqları üçün, qrafinya yaxın bir dost və əsas məsləhətçidir. İstilik, sevgi, qarşılıqlı anlaşma ana və uşaqlar arasında hökm sürür. Əsəri ailə dəyərləri baxımından tədqiq edərək ictimaiyyətin diqqətini Tolstoyun ideal ailə nümunəsinə diqqət çəkir, bununla da, ailə dəyərlərinin qorunmasının vacibliyin qeyd edilir. Təsadüfi deyil ki, N.N. Straxov demişdir: "Bu heç bir roman deyil, tarixi bir roman deyil, hətta tarixi bir xronika deyil; bu, ailə xronikasıdır". (3)

Müasir ailə haqqında qeyd etmək olar ki, indi ailələrin əsasən bir uşaqla formalaşması tendensiyası var. Həmçinin ailələr çiçəklənirlər, harada kişi və qadın bərabər hüquqludur, yəni harada ər (arvad) kişiylə bərabər işləmək hüququna malikdir, məhz buna görə qadın uşaqların tərbiyəsinə getdikcə daha az vaxt və diqqət ayırır. Həmçinin, vətəndaş nikahlarının sayı artmışdır. Belə ki, gənclərdə şəxsi azadlığa tələbat artıb və onlar ər-arvad əlaqələri ilə özlərini yükləməyə tələsmirlər. Müasir gənclər üçün ilk növbədə ailə dəyərləri və güclü bir ailənin yaradılması deyil, karyeradır. Bu gün, XXI əsrdə, insan həyatının demək olar ki, bütün sahələrinin qloballaşması və sosiallaşması əsrində ailə əsas olaraq qalır və ya sosioloqların dediyi kimi, yeni nəslin təhsil aldığı "ilkin sosial qrup, sosial institut"dur. Ailənin cəmiyyətdə rolunun artırılması və gənclərin ailə dəyərlərinə hörmət ruhunda tərbiyə olunması üçün müasir Azərbaycanda yaşayan insanların şüurunda ailənin və onunla bağlı dəyərlərin hansı yeri tutduğunu anlamaq lazımdır.

Dünyanın bir çox inkişaf etmiş dövlətlərində ailə mürəkkəb, böhran vəziyyətindədir. Bu, özünü çoxsaylı boşanmalarda büruzə verir. Cəmiyyətin müxtəlif sahələrində baş verən böhranlar ilk növbədə əhalinin mənəvi-əxlaqi dəyərlərinə ciddi zərbə vuran ideoloji qarışıqlığa səbəb olur. İndi biz mənəviyyatın inkişaf etdirilməsi əvəzinə millətin ümumi mənəvi parçalanmasını görürük. Ailə və nikah haqqında suallar sırf mənəvi diskussiyalardan kənara çıxır. Demoqrafiya problemləri, deməli, ictimai və iqtisadi həyatın inkişaf templəri də mənfi istiqamətdə artmaqdadır.

Hər zaman bu bir həqiqətdir ki, sağlam ailədə savadlı və nümunəvi nəsil var. Valideynlərin özləri tərbiyəsi ilə yanaşı, valideyn borcu əsasında da təkmilləşdirilir. Ancaq son dəyişikliklər və idarə olunmayan cəmiyyətlər, tərbiyənin əsası olan ailə tərbiyəsi, insan tərbiyəsi baxımından çox yad olan ailədəki adi tərbiyədən ailə ənənələrini parçalayır. Ailədə sağlam mühitin formalaşdırılması, baş verən bu və ya digər təsirlərin, xüsusilə də, qloballaşmanın ailə dəyərlərinə mənfi təsirinin qarşısını almaq üçün ilk növbədə maarifləndirici tədbirlər həyata keçirilməli, gənclər arasında ailə dəyərlərinin vacibliyi ön plana çəkilməlidir. Biz ölkənin gələcəyiyik və ölkənin gələcəyi bizdən asılıdır. Məhz buna görə həyatda düzgün istiqamətləri seçmək indi çox vacibdir.

**Məqalənin aktuallığı.** Müasir dövrün vacib məsələlərindən sayılan qloballaşmanın təsiri nəticəsində miqrasiya, iqtisadi vəziyyət, ölkələrarası nigah və s. bu kimi amillər ailədə bir sıra problemlərin yaranmasına səbəb olmuşdur. Məqalədə bu və digər bu kimi məsələlərə toxunulduğunu və onların həlli yollarının elmi cəhətdən araşdırıldığını nəzərə alaraq onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə qloballaşma şəraitində yaranmış olan yuxarıda qeyd etdiyimiz məsələlərlə yanaşı, gənclər tərəfindən ailənin for-

malaşması probleminə də xüsusi önəm verilmiş, bu kimi milli-mənəvi dəyərlərin əhəmiyyəti konkret elmi əsaslarla bir daha göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Атемова К.Т. Влияние глобализации на развитие современного традиционного семейного воспитания. // Международный журнал прикладных и фундаментальных исследований, 2014, № 9 (часть 1). с. 181-184

2. Штомпка П. Социология социальных изменений. М.: Аспект Пресс, 1996, с. 71

3. Глобализация и семья. // https://www.isras.ru/blog_gurko1.html

4. The social dimension of globalization: A review of the literature// International Labour Review, Vol. 143 (2004), No. 1-2.

5.The impact of globalisation on families and communities // https://www.anglicancommunion.org/media/55691/the_impact_of_globalisation.pdf

**Г.Э. Вердизаде**

## Глобализация и семья

## Резюме

В статье говорится о глобализации, одной из самых актуальных проблем нашего времени. В статье описывается сущность глобализации, различные подходы к ней, и особенно ее влияние на семейные ценности. Миграция, экономическое положение, межгосударственные браки и т. д., как эти вопросы, были затронуты проблемы, которые они создают в семьях. Дается проблема формирования семьи молодыми людьми в условиях глобализации. В статье еще раз подчеркивается важность семейных ценностей.

**G.E. Verdizade**

## Globalization and family

## Summary

The article talks about globalization, one of the most pressing issues of our time. The article describes the essence of globalization, different approaches to it, and especially its impact on family values. Migration, economical situation, interstate marriage and etc. like these issues have been touched problems which they create in the families. The problem of family formation by young people in the context of globalization is given. The importance of family values is emphasized once again in the article.

**Redaksiyaya daxil olub:** 29.01.2020